UOT 372.894

***Səbinə Məmmədağa qızı Əhədova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# PANDEMİYA ŞƏRAİTİNDƏ VƏTƏN TARİXİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN ONLAYN TƏHSİLƏ HAZIRLANMASI TƏCRÜBƏSİNDƏN

***Сабина Маммадага гызы Ахадова***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики.*

# ИЗ ОПЫТА ПОДГОТОВКИ УЧАЩИХСЯ К ОНЛАЙН-ОБУЧЕНИЮ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В УСЛОВИЯХ ПАНДЕМИИ

***Sabina Mammadagha Ahadova***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan.*

# PRACTICE OF PREPARING STUDENTS FOR ONLINE LEARNING IN TEACHING OF HISTORY OF AZERBAIJAN IN A PANDEMIC

**Xülasə.** XXI əsr informasiya erasının başlanğıcıdır. Müasir təhsil sistemini informasiya texnologiyalarından istifadə etmədən təsəvvür etmək mümkün deyil. Pandemiya şəraitində onlayn təhsildən istifadə prosesində əldə edilmiş qabaqcıl təcrübələr öyrənilmiş və ümumiləşdirilmişdir. Məqalədə şagirdlərdə forma-laşdırılacaq rəqəmsal-onlayn bacarıqların təsnifatı verilmişdir. Verilən təsnifatların şagirdlərə mənimsədilməsi metodları da şərh edilib. Təhsildə şagirdlərə onlayn bacarıqların formalaşdırılması onların dünyanın yeni düzəninə hazırlığına xidmət edir.

***Açar sözlər:*** *Pandemiya şəraitində, Azərbaycan tarixi, tədris, online təhsil, informasiya texnologiyaları.*

**Резюме.** 21 век - начало информационного века. Невозможно представить современную систему образования без использования информационных технологий. Были изучены и обобщены лучшие практики, полученные в процессе использования онлайн-образования в условиях пандемии. В статье представлена классификация цифровых онлайн-навыков, которые необходимо сформировать у учащихся. Также были прокомментированы методы усвоения данных классификаций учащимся. Формирование онлайн-навыков в образовании служит для подготовки учащихся к новому миру.

***Ключевые слова:*** *в условиях пандемии, история Азербайджана, обучение, онлайн образование, информационные технологии.*

**Summary.** 21st century - the beginning of the information age. It is impossible to imagine a modern education system without the use of information technology. Best practices from the use of online education in a pandemic were studied and summarized. The article presents a classification of digital online skills that need to be formed in students. The methods of assimilation of these classifications by students were also commented. The formation of online skills in education serves to prepare students for the new world order.

***Key words:*** *In a pandemic, history of Azerbaijan, training, online education, Information technologies.*

Pandemiya şəraiti cəmiyyəti çətin vəziyyətə gətirib çıxardı. İnsanlar bu çətinlikdən çıxmağın yollarını aramağa məcbur oldular. Həyatımızın ayrılmaz hissəsi olan təhsil sahəsinin inkişafı üçün ölkədə İnternet resurslarından istifadə sahəsində yetərincə müsbət təcrübə toplan-

mışdır. Doğrudur bəzi rayon və kəndlərimizdə müəyyən çatışmazlıqlar olsa da bu qısa müddətdə bir çox uğurlara da imza atmışıq. Humanitar biliklər də daxil olmaqla bütün təhsil sistemi bizə informasiya texnologiyaları təqdim edən resurslara əsaslanır. Hələ 1995-ci ildə təlimin informasiyalaşdırılmasının təhsilin keyfiyyətcə daha yüksək səviyyəyə qaldırılması aktual məsələ kimi irəli sürülmüşdür. Təhsilin in-formasiyalaşdırılması təlimin yeni texnologiyalarının tətbiqinə yol açır, fərdi təlim, biliklərin sistemli olaraq yoxlanılmasının təşkili üçün, hər bir uşağın psixofiziki xüsusiyyətlərinin nəzərə alınması kimi əbədi problemlərin həlli üçün şərait yaradır. İKT-dən istifadə sahəsində azərbaycanlı alimlərdən İ. İsmayılov, Ə. Pələngov, Q. Alışov, Ə. Rüstəmov, E. Seyidzadə, Z. Tağıyeva, Y. Həsənova, C. Cəbrayılzadə, M. Əmirov və b. xarici ölkələrin tədqiqatçıları da İKT-dən istifadəyə xüsusi diqqət yetirmişlər. Onlardan M.B. Alekseevanı, T. Vogeni, B.S. Qerşunskini, O.V. Şlıkovanı və b. göstərmək olar. Sadaladığımız tədqiqatçıların əsərləri ilə tanışlıqdan aydın olur ki, onların hər biri İKT-dən istifadənin bu və ya digər sahələrinə nüfuz etmişlər. 2007-ci ildən bu günlərimizədək İKT-dən istifadə sahəsində toplanmış müsbət təcrübənin şagirdlərə mənimsədilməsinə dair materiallara təsadüf etmədik. Belə ki, tədqiqatçı İ. İsmayılov (1, s. 78) ümumtəhsil məktəblərində fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadənin nəzəri və praktik problemlərini tədqiq edib. Problemin nəzəri əsaslarını müəyyənləşdirərək praktik-təcrübi əsasları ilə uzlaşdırmaqla informasiya texnologiyalarından istifadənin səmərəliliyinə nail olub. Bu baxımdan İ. İsmayılov yazır: "İKT-dən istifadənin nəzəri və praktik əsaslarının tədqiq edilməsi təlimdə onlaynın səmərəliliyi üçün ən vacib şərtlərdən biridir" (1, s. 78) Digər tədqiqatçı M. Əmirov tarixin tədrisində multimedia, kompüter və modul təlim texnologiyasından istifadə məsələsinə şərh verib. Müəllif həmin texnologiyalardan müəllimlərin necə istifadə etmələrinə diqqət yetirib. İKT-dən istifadə bacarıqlarının şagirdlərə aşılanması məsələlərinə toxunulmayıb. M. Əmirov İKT-nin müsbət cəhətlərini qeyd etməklə yanaşı, onun qüsurlarını da göstərərək yazır: "Bəzi müəlliflər İKT-nin tətbiqini ideallaşdırırlar. Yadda saxlamaq lazımdır ki, tarix təlimində müəllimin canlı pedaqoji fəaliyyətini heç bir elektron vasitə əvəz edə bilməz" (2, s. 485)aRus tədqiqatçısı B.S. Qerşunskiy təhsildə kompüterləşmənin nəzəri və metodoloji əsaslarını tədqiq etməklə həmin problemin həllinə çox böyük töhfə vermişdir. B.S. Qerşunskiy yazır: "Təhsilin kompüterləşdirilməsi elmi əsaslarla həyata keçirilməlidir." (4, s. 358) Əlbəttə B.S. Qerşunskiy də digər sələfləri kimi bu sahədə əldə edilmiş nailiyyətləri, qabaqcıl təcrübəni öyrənərək ümumiləşdirməmişdir.

Tarix dərslərində şagirdlərdə forma-laşdırmalı olduğumuz əsas bacarıqlar: İlk öncə şagirdlərin kompüterdən ümumi istifadə bacarıqlarını formalaşdırırıq yəni kompüteri işə salmaq, söndürmək və s. Kompüterin hissələri haqqında məlumat veririk. Kompüter aşağıdakı qurğu-lardan təşkil olunmuşdur: Sistem bloku, Monitor, Klaviatura, Maus(siçan), Əlavə qurğular (periferiya qurğuları): Printer(çap qurğusu), Skaner, Modem, səs gücləndiricilər və s.

Şagirdləri windows əməliyyat sistemi ilə tanış edirik. Bildiyimiz kimi əməliyyat sistemi kompüterin mühüm bir hissəsini təşkil edir. Tarix dərslərində hər dəfə bizə lazım olan yeni papka, qovluq, word sənəd yaratmağı hələ tarixin tədrisinin ilk illərindən öyrənirik.

Microsoft Office proqramlarından istifadə, xüsusilə Microsoft Word proqramında yazmaq, redaktə etmək, Power Pointdə təqdimat ha-zırlamaqla bağlı ümumi bacarıqları mənimsətməyə çalışırıq. Microsoft Word mətn redaktoru olub əsasən yazı işləri üçün nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, bu ilkin bacarıqların formalaşdırılması çox da çətin olmur. Ümumiyyətlə nəzərə alaq ki, texnologiya gündəlik həyatımızın əsas tərkib hissəsidir və müasir uşaqlar texnologiyadan istifadə etməyi çox sevirlər. Sanki onlar bu sahədə anadangəlmə ustalığa sahibdirlər. İlkin anlayış və ilkin bacarıqlar formalaşdırdıqdan sonra növbəti mərhələdə -onlayn bacarıqların formalaşdırılmasına keçirik. Şagirdləri internetlə tanış edirik. Bunun üçün ilk öncə brauzerlərdən başlayırıq. Əsas brauzerlər bunlardır: İnternet Explorer, Google Chrome, Mozilla Firefox, Opera, Safari. Veb brauzeri seçən zaman əsasən diqqət yetirdiyimiz məqamlar – etibarlılıq, sürətlilik və təhlükəsizlikdir. Sonrakı mərhələdə axtarış sistemləri ilə tanış oluruq. Düzgün axtarış aparmaq bacarıqları formalaşdırırıq. Bu çox vacib mərhələdir çünki

düzgün axtarış aparmayan zaman internetdə axtarış əsl problemə çevrilmiş olur. Axtarışa başlamaq üçün birinci axtarışla bağlı ilk sözü və ya söz birləşməsini daxil edirik. Bildiyimiz kimi İnternet azad məkan olduğuna görə yanlış axtarış böyük vaxt itkisinə səbəb ola bilər. Təsadüfi deyil ki, çox vaxt düzgün axtarış aparmağı bacarmayan şagirdlər və bəzən də müəllimlər axtarış prosesindən şikayət edirlər. Qarşılaşdıqları həddən artıq informasiya onları qorxudur. Adi nümunə ilə müqayisə etmək istəyirəm. Böyük kitabxanalara gedərkən (tələbəlik illərində hər birimiz Axundov kitabxanasına gedirdik) biz heç vaxt qorxmurduq. Çünki nə axtardığımızı və harada axtaracağımızı dəqiq bilirdik. Hətta əlimizdə konkret ədəbiyyat siyahısı da olurdu. İnternetdə axtarış da belədir şagird nə axtardığını biləndən sonra və düzgün axtarış aparmaq bacarıqlarına sahib olandan sonra axtarış aparmaq heç də çətin olmur. Digər məsələ axtarış zamanı qarşımıza çıxan mənbələrin heç də hamısı etibarlı və təhlükəsiz olmur. Axtarış zamanı şagirdlərin qarşısına təhlükəli saytlar çıxa bilər. Bundan qorunmaq yollarını şagirdlərə öyrədirik. Ətraflı axtarış (расширенный поиск) aparmaq, axtarışı filtrləmək əsas bacarıqlardır. Bunun üçün axtarış yerinə lazım olan sözü daxil edirik və seçimlər sözünün üzərinə gələrək ətraflı axtarış əmrinin üzərinə basırıq və açılan səhifədə axtarışımızı dil, region, sayt və ya domen, safe search (təhlükəsiz axtarış), fayl növü, istifadə hüquqları və s. üzrə filtrləyə bilərik. Şagirdlər axtarışın nəticələrini analiz etməyi də bacarmalıdırlar. Bu çox vacibdir. Bu barədə şagirdləri mütləq məlumatlandırmaq lazımdır. Axtarışın nəticəsində tapdığın mənbəni necə düzgün qiymətləndirmək olar? Bunun üçün ilk növbədə müəlliflə tanış olmaq lazımdır. Müəllif kimdir onun təhsili, iş təcrübəsi elmi tədqiqat işləri və s. Sonra dərc olunduğu mənbəyə baxmaq diqqət yetirmək lazımdır. Qeyd etmək istərdim ki, bu bacarıqlar gələcəkdə ali məktəbdə oxuyan zaman onlara lazım olan ən vacib bacarıqlar olacaq. Çünki internet resursları ilə işləmək ilk öncə düzgün axtarış etməkdən başlayır. Buna görə də biz bu bacarıqları tarixin tədrisinin ilk illərindən başlayırıq və yuxarı siniflərə keçdikcə inkişaf etdiririk. İKT tarix dərslərini effektiv etmək üçün çox geniş imkanlar açır. Sadaladıqlarım bizim artıq bir uzun illərdir forma-laşdırdığımız bacarıqlardır. Lakin cəmiyyətdə baş verən kəskin Pandemiya şəraiti qısa vaxt ərzində daha yeni bacarıqlar formalaşdırmaq məcburiyyəti ortaya çıxardı: Onlayn dərslər, onlayn görüş, onlayn tapşırıqlar, onlayn imtahan, onlayn qiymətləndirmə, şagirdlər arasında onlayn əməkdaşlıq və bunları həyata keçirmək üçün müxtəlif onlayn proqramlar, onlayn alətlər onlardan istifadə etmək və s. Baxmayaraq ki, müəllimlərimizin bu sahədə məlumatları o qədər də çox deyildi, onlar qısa vaxtda yaranmış vəziyyətə adaptasiya etməklə əsl fədakarlıq göstərdilər. Şagirdlərin təhsildən geri qalmamaları üçün əllərindən gələni etdilər. Zaman keçdikcə bütün sahələrdə təhsil, tibb, xidmət, turizm və s. texnologiyanın rolu sürətlə artır. Gələcəyi İKT-siz təsəvvür etmək mümkün deyil. Gələcəyin təməli də bu gün qoyulur. İKT bacarıqları zəif olan şagird heç bir sahədə uğur qazana bilməz. Buna görə də bu gün şagirdlərimizi gələcəyin tələblərinə uyğun formalaşdırmalıyıq.

Nəticə olaraq deyə bilərik ki, təhsilin keyfiyyətinin dayanıqlılığını saxlamaq üçün həm müəllimlərin həm şagirdlərin İKT-dən istifadə bacarıqlarının formalaşdırılmasının didaktik əhəmiyyəti müəyyənləşdirilmiş, həmin bacarıqların şagirdlərə mənimsədilməsi zəruriliyi əsaslandırılmışdır.

**Problemin elmi yeniliyi.** Şagirdlərdə İKT-dən istifadə üzrə bilik və bacarıqların təsnifatı müəyyənləşdirilmiş, həmin bacarıqların şagirdlərə mənimsədilməsinin metod və üsulları tətbiq edilərək təhsil alanların onlayn təhsilə hazırlanması üçün motiv yaradılmasıdır.

**Problemin aktuallığı.** Pandemiya şəraitində fəaliyyət göstərmək üçün tarix müəllimləri şagirdlərini onlayn təhsilə hazırlamağa ehtiyac var.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə şagirdlərin onlayn təhsilə hazırlanması sahəsində əldə edilmiş qabaqcıl təcrübədən orta məktəblərin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. İsmayılov, İ.N. Ümumtəhsil məktəblərində fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadənin nəzəri və praktik problemləri / İ.H. İsmayılov. -Bakı: Elm, -2013. -s.78

2. Əmirov, M.M. Ümumtəhsil məktəblərində tarixin fəal / interaktiv təlimi metodikası / M.M. Əmirov. -Bakı, -2014. -s. 485

3. Гершунский, Б.С. Теоретико-методологические основы компютеризации в сфере образования / Б.С. Гершунский. – Москва: Наука, - 1995. -130 с.

4. İsmayılov, İ.N. Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları. Tədrisdə ondan istifadə metodikası / İ.H. İsmayılov, C.A. Abdullayev. -Bakı: ABU, -2006. -s. 358

**E-mail:** ahad.sabina@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **M.M. Əmirov**
*ped.ü.fəls.dok., dos.* **D. Musayev**

**Redaksiyaya daxil olub:** 10.06.2021